# Uşaq ədəbiyyatımızın böyük uğuru




Bu yaxınlarda Mexiko şəhərində Beynəlxalq Uşaq və Gənclər Kitabı Şurası - 2014-cü ilin Şərəf siyahısını - Fəxri Andersen siyahısını elan etdi. Sevindirici haldır ki, dünyanın müxtəlif ölkələrinin 57 yazıçısının laureatlar siyahısında Azərbaycanın uşaq yazıçısı Qəşəm İsabəyli də yer alıb. İndiyə qədər Andersen Fəxri diplomuna Rusiyanın məşhur uşaq yazıçılarından S.Mixalkov, A.Barto, V.Medvedyev, Y.Koval, A.Aleksin, tərcüməçilərdən B. Zaxoder, İ. Tokmakova və b. layiq görülüb.

Xatırladaq ki, Q.İsabəylinin Beynəlxalq Uşaq və Gənclər Kitabı Şurasının "Bookbird" jurnalında (London, 2012) "Baba, sabahın xeyir!" hekayəsi ingiliscə çap olunub. İngilis redaktoru əsər haqqında fikrini, hekayənin ədəbi dəyərini müəllifə ünvanladığı məktubunda belə ifadə edib: "Sizin hekayəniz son dərəcə gözəldir!". Bu, əslində Azərbaycan uşaq ədəbiyyatı haqqında deyilmiş dəyərli fikirdir.

Orijinal yaradıcılığı ilə seçilən Qəşəm İsabəylinin dünya uşaq ədəbiyyatının münsifi sayılan Beynəlxalq Uşaq və Gənclər Kitabı Şurasının Fəxri Andersen diplomuna layiq görülməsi Azərbaycan uşaq ədəbiyyatının böyük uğurudur.

Andersen Fəxri diplomunu bu günlərdə Q.İsabəyliyə Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar təqdim edib.

**Anar MƏMMƏDOV**